# Quba rayonunda 27 sentyabr Anım Günündə şəhidlərin xatirəsi ehtiramla yad olunmuşdur





***Anım Günü ilə əlaqədar Quba rayonunun müxtəlif ərazilərində şəhidlərin xatirəsinə ağaclar əkilmiş, Şəhidlər xiyabanında  şəhid ailələri və qazilərin iştirakı ilə toplantı keçirilmiş, saat 12:00-da 1 dəqiqəlik sükutla şəhidlərin xatirəsi ehtiramla yad edilmişdir.***

Toplantıda Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Vahid Əhmədov, rayon Ağsaqqallar Şurasının sədri İldırım Məmmədov, şəhid atası Qalib Mikayılov, qazi Əfqan İmaməliyev çıxış etmiş, qazi övladı Şükran İmaməliyev şəhidlər haqqında şeir söyləmişdir.

Şəhidlər xiyabanında şəhid məzarları gün ərzində rayonun sakinləri tərəfindən ziyarət edilmişdir.

***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 29 sentyabr.- S.8.